# Şəddat CƏFƏROV - 86

## BÖYÜK ZƏRDABİNİN VARİSİ, NƏŞR İŞİNİN QAZİSİ,

### *yaxud Şəddat Cəfərov olmaq nə deməkdir?*

Bu gün respublikanın ilk poliqrafik alimi, iqtisad elmləri namizədi, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, Qızıl qələm mükafatı laureatı, "Gənclik "nəşriyyatının direktoru, çoxhörmətli - Şəddad Muğdad oğlu Cəfərovun doğum günüdür. Təbrik mesajlarını oxuyur, qürur duyuram. Nə yaxşı ki, ölkəmizin Şəddad müəllim kimi uca şəxsiyyətləri, dəyərli ziyalıları, örnək olası insanları vardır!

Şəddad Cəfərov haqqında,onun yorulmaz, ibrətamiz həyat və yaradıcılıq yolu barədə kimlər danışmamış, yazmamışlar? Bundan sonra da deyiləcək, yazılacaqdır. Çünki bu ömrü, bu şöhrəti Şəddad müəllim öz əməlləri, alın təri ilə qazanmışdır.

Şəddad Cəfərovun həyat və yaradıcılıq yolunu yaxından izləməyimlə qürur duyuram.Odur ki, hər bir insan üçün özəl olan, ömrün hesabatını gündəmə gətirən DOĞUM GÜNÜNDƏ ilkin olaraq özümə, sözümə belə bir sual verməkdən qürur duydum: ŞƏDDAD CƏFƏROV OLMAQ NƏ DEMƏKDİR?

Şəddad Cəfərov olmaq İNSAN olmaq deməkdir!

Şəddad Cəfərov olmaq həyatın hər bir çətin anında təmkinli,mübariz,məğrur olmaq deməkdir!

Şəddad Cəfərov olmaq həm ölkədə, həm də ölkə xaricində biliyi, bacarığı, xeyirxahlığı ilə seçilmək, sevilmək,dəyərli ŞƏXSİYYƏT olmaq deməkdir!

Şəddad Cəfərov olmaq yurduna,soy-kökünə,sevimli Azərbaycanımıza vurğunluqla, sədaqətlə xidmət etmək deməkdir!

Həyatını yaxından izlədiyim Şəddad müəllim ulu Zərdabi ənənələrini ləyaqətlə davam etdirmiş, bütün maneələri,çətinlikləri mübarizliyi, düzlüyü hesabına aşa bilmiş, öz sevimli işinə-nəşriyyat-poliqrafiya peşəsinə sədaqətlə xidmət etmişdir. Odur ki, Şəddad Cəfərov olmaq böyük Zərdabinin varisi, nəşr işinin qazisi olmaq deməkdir!

Şəddad müəllimin adı sağlığında salnamələrə, kitablara düşübdür. Şəddad Cəfərov həm də incə,satirik-yumoristik hekayələr, esselər, felyetonlar, ədəbi-tənqidi məqalələr, kitablar müəllifi kimi tanınır, oxunulur, sevilir. Odur ki,Şəddad Cəfərov olmaq sağlığında xoş xatirələrə, salnamələrə düşmək, hərtərəfli biliyi sayəsində araya-ərsəyə gətirdiyi cildlərlə əsərlərin müəllifi olmaq deməkdir! Xoşbəxt bir ömürdür, elə deyilmi?

Hörmətli Şəddad müəllimi, ağsaqqal ziyalımızı doğum günü münasibətilə ürəkdən təbrik edir, ən xoş arzularımı bildirirəm!



***Yadulla AĞAZADƏ,***
***professor***